Jan Batist Molyer

XƏSİS

Beşpərdəli komediya

Tərcüməçi:
A.Nəzakət

QANUN NƏŞRİYYATI

Molière

L'AVARE

Jan Batist Molyer – "Xəsis" əsəri var-dövlətə həddindən artıq bağlı olan Harpaqon adlı adamın həyatından bəhs edən komediyadır. Əsərdə pul sevgisinin insanı necə xəsis və mərhəmətsiz etdiyini göstərilir. Harpaqon həm öz övladlarının, həm də ətrafındakı insanların xoşbəxtliyini pula görə qurban verir. Hadisələr zamanı onun xəsisliyi bir çox gülməli və düşündürücü vəziyyətlər yaradır. Müəllif bu əsər vasitəsilə xəsislik və tamahın insan münasibətlərinə zərər verdiyini satirik şəkildə göstərir.

İŞTİRAK EDƏNLƏR:

Harpaqon – Kleant və Elizanın atası, Marianaya vurulmuşdur.
Kleant – Harpaqonun oğlu, Marianannın sevgilisi.
Eliza – Harpaqonun qızı, Valerin sevgilisi.
Anselm – Valerin və Marianannın atası.
Valer – Anselmin oğlu.
Mariana – Anselmin qızı, Kleantın sevgilisi.
Frozina – Hər şeydən başı çıxan bir qadın.
Simon – Makler.
Jak – Harpaqonun aşpazı və sürücüsü.
Lafleş – Kleantın nökəri.
Kloda – Harpaqonun xidmətçisi.
Brendavuan, **Lamerluş** } Harpaqonun nökərləri.
Komissar
Mirzə

Tamaşa Parisdə,
Harpaqonun evində vaqe olur.

Birinci pərdə



BİRİNCİ SƏHNƏ

Eliza, Valer

Valer. Eliza, əzizim bu necə işdir? İndicə məni inandırırdınız ki, mənə qarşı heç bir zaman vəfasız olmayacaqsınız, bəs nə üçün indi fikrə daldınız? Mən sevinc içində ikən, siz ah çəkirsiniz. Yoxsa məni xoşbəxt etdiyinizə heyifsilənirsiniz? Bəlkə də mənim çılğın hisslərim qarşısında təslim olaraq mənə söz verdiyinizə peşmansınız?

Eliza. Peşman olmağıma bir səbəb yoxdur. Valer, bu işlərin hamısı son dərəcə xoşdur və bundan imtina etməkdən acizəm. Lakin doğrusunu desəm, mən baş verəcək işlərin fikrini çəkirəm, sizi qədərindən artıq sevdiyim məni qorxudur.

Valer. Eliza, xeyirli iş görəndə qorxularmı?

Eliza. Ah, çox şeydən qorxulur: atam acıqlanar, ailəmiz məni məzəmmətləməyə başlar, tanışbilişlər bədnam edər... Lakin məni hər şeydən çox qorxudan qəlbinizin dəyişə biləcəyidir. Valer mə-

nə qarşı soyuya biləcəyinizdir, bu isə biz hədsiz bir çılğınlıq və sadəlövhlüklə sevdiyimiz zaman çox tez-tez olur... burası dəhşətdir!

Valer. Ax, məni təhqir etməyin. Mənim haqqımda hər şey düşünə bilərsiniz, Eliza, lakin bircə bunu yox, mən öz borcuma xain çıxa bilmərəm! Mən sizi hədsiz dərəcədə sevirəm və ölüncəyə kimi sevəcəyəm.

Eliza. Ax, Valer, bunu deyən bir siz deyilsiniz! Sözə baxsan – bütün insanlar bir cürdür, işdə isə aralarında o qədər fərq var ki!

Valer. Sizi and verirəm, insaflı olun, bu təhqiredici şübhələrinizlə məni öldürməyin, sizi necə sevdiyimi isbat etmək, min dəfə isbat etmək üçün mənə vaxt verin!

Eliza. İnsan sevərkən çox həvəslə inanır! Əlbəttə, Valer, məni aldatmağa qabil olduğunuzu heç ağlıma belə gətirmirəm, məni doğrudan da, sevdiyinizə və heç bir zaman mənə xain çıxmayacağınıza inanıram, mən heç bir şeydə şübhələnmək istəmirəm. Lakin camaat nə deyəcək? Bax, qorxduğum budur, buna görə də pərişanam.

Valer. Camaat nə deyəcək ki?

Eliza. Sizi hamı mən tanıdığım kimi tanısaydı, mən heç bir şeydən qorxmazdım. Bu mənim üçün kifayətdir, mənim üçün etdiyiniz yaxşılıq mənə bə-

raət qazandırır, sizə bütün ömrüm uzunu minnətdar olmalıyam. Bir-birimizi ilk dəfə gördüyümüz o müdhiş dəqiqələri mən heç bir zaman unutmayacağam, heyrətli bir fədakarlıqla məni sudan xilas etdiyinizi, şəfqətli bir qayğı ilə məni ayıltdığınızı heç bir zaman unutmayacağam. Məni sevərək, bu sevginizdə o qədər hörmətli və səbirli idiniz ki! Mənim xatirim üçün qohumlarınızdan, vətəninizdən üz çevirdiniz, burada qaldınız və məndən ayrılmamaq üçün atamın yanında nökər olmaqdan belə boyun qaçırmadınız: bunu mən heç bir zaman unutmayacağam; əks təqdirdə sizə söz verməzdim. Lakin başqaları üçün bu bəlkə də kafi deyil – onlar məni anlayacaqlarmı?

Valer. Sizə bəraət qazandıran bircə mənim sevgim deyildir, nahaq yerə bunu deyirsiniz. Bəraət qazanmaq sizə çox vacibdirsə, atanız sizə bu bəraəti qazandırır. Onun müdhiş xəsisliyini, öz uşaqlarına qarşı sərtliyini nəzərə aldıqda yalnız buna deyil, başqa şeylərə belə bəraət qazandırmaq olar. Bu sözlərim üçün üzr istəyirəm, mənim əziz Elizam. Özünüz çox yaxşı bilirsiniz ki, burada başqa söz demək mümkün deyil. Nəhayət, ata-anamı tapa bilsəm – ümidvaram ki, tapacağam – onunla işi asanlıqla düzəldə bilərik. Mən bu saat xəbər həsrətindəyəm, geciksələr, özüm dallarınca gedəcəyəm.

Eliza. Ax, Valer, məni tək qoyub getməyin, rica edirəm! Atamın ürəyini almağa çalışın: lazım olan bircə budur.

Valer. Mən çalışıram. Eliza, onun yanında nökər olmaq üçün kələklərdən çıxmağa məcbur olduğum, onun etibarını qazanmaq üçün hiylələrə əl atdığım ki, sizə məlumdur. İndi artıq böyük nailiyyətlər əldə etmişəm. İnsanın meyillərini təqlid et, onun adətlərini qəbul et, zəif damarlarından yapış, hər bir sözündən, hər bir hərəkətindən coşub valeh ol – vəssalam, onda nə istəsən, edə bilərsən. Bu ən yaxşı yoldur, buna artıq indi inanmışam. Əlbəttə, həddini keçmək yaramaz, lakin mərd-mərdanə oynamağın qorxusu yoxdur, belə işdə ən ağıllı adam belə bir sarsaq kimi tora düşəcək və açıq-aşkar boş və mənasız olan sözə inanacaq, üz-gözünü büzüşdürmədən onu udub yeyəcək, təki bu xörəyin yaltaq xuruşu bir az şirin olsun. Əlbəttə, işi vicdanla gördüyümü deyə bilmərəm, lakin lazım olan adama uymalıdır və başqa yol yoxdursa, təqsirkar yaltaqlanan deyil, yaltaqlananlara yol verəndir.

Eliza. Qardaşımla da dostlaşsaydınız yaxşı olardı: qulluqçuya etibar etmək təhlükəlidir – birdən ağlına gəldi, işimizin üstünü açа bilər.

Valer. Yox, ikisinin də öhdəsindən gələ bilmərəm. Bir-birinə heç oxşamırlar, ikisinə də birdən-